*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 470-481*

https://doi.org/10.62837/2025.7.470

**RÜBABƏ VƏKİLOVA VALEH QIZI**
***Azərbaycan Dillər Universiteti***
***ruba.vekil@mail.ru***
***ORCHID ID: https://orcid.org/0009-0002-4486-708X***

# ERİX MARİA REMARKIN ROMANLARINDA MÜHACİR HƏYATININ ƏDƏBİ İNİKASI

**XÜLASƏ**

Erix Maria Remarkın “Yaxınını sev” və “Zəfər tağı” romanlarında mühacirət mövzusu əsas xətt kimi verilir. Yazıçı müharibədən sonra öz yurdlarından didərgin düşən insanların taleyini təsvir edir. Hər iki romanda qəhrəmanlar üçün vətən anlayışı artıq əlçatmaz bir xatirəyə çevrilmişdir. Onlar yad ölkələrdə, xüsusən də Parisdə yeni həyat qurmağa çalışırlar. Lakin bu yeni həyat daim hüquqi qeyri-müəyyənlik, yoxsulluq və təqib hissi ilə müşayiət olunur. “Yaxınını sev” romanında əsas obraz Ştefan Zeymark mühacirliyin ağrı-acısını öz taleyində yaşayır. O, doğma vətəninə qayıda bilmir, amma yad torpaqda da özünü tam mənada xoşbəxt hiss etmir. “Zəfər tağı” romanında isə Ravik obrazı müharibənin yaralarını və qaçqın həyatının çətinliklərini təcəssüm etdirir. Ravik üçün mühacirlik sadəcə fiziki yox, həm də mənəvi sürgün deməkdir. Hər iki əsərdə Remark mühacirətin insan xarakterinə, psixologiyasına və münasibətlərinə necə təsir etdiyini göstərir. Onun qəhrəmanları daim seçim qarşısında qalır: yaşamaq üçün mübarizə aparmaq, yoxsa ümidsizliklə barışmaq. Mühacirlik şəraitində dostluq, məhəbbət və həmrəylik daha böyük dəyər qazanır. Yazıçı göstərir ki, mühacirlər üçün ən böyük mübarizə sadəcə fiziki sağ qalmaq deyil, mənəvi bütövlüyü qorumaqdır. Bu əsərlər həm tarixi, həm də fəlsəfi baxımdan insanın köksündəki vətən həsrətini açıq şəkildə ifadə edir. Beləliklə, Remark mühacirət mövzusunu fərdi talelərlə bəşəri bir problem kimi birləşdirir.

**Açar sözlər: mühacir, müharibə, vətən həsrəti, həmrəylik, təcrid olmaq**

1933-cü ildə Almaniyada Milli Sosialist Partiyası nəzarəti ələ keçirdi, partiya iki fərqli baxışı özündə birləşdirir, bir tərəfdən cəmiyyətlərin mühacirətə münasibətini müzakirə edir, digər tərəfdən qeyri-qanuni mühacirin psixoloji vəziyyətini təhlil edir.

Erich Mariya Remark 1939-cu ildə ABŞ-a mühacirət etdi. Onun “Yaxınını sev” romanı bir il sonra nəşr olundu. Beynəlxalq ədəbiyyatşünaslar Remarkı ciddi şəkildə araşdırdıqlarından belə nəticəyə gəliblər ki, bu roman bir çox cəhətdən müəllif yaradıcılığında yeniliyi təmsil edir.

Həqiqətən, Remark bu əsərlə yenilik etdi. “Qərb cəbhəsində yenilik yoxdur”, “Geriyə yol”, “Üç yoldaş” adlı üç uğurlu romanı üçün xarakterik olan birinci şəxsin hekayə formasından imtina edir. Başqa sözlə o, təhkiyəçinin baxışını dəyişir.

“Yaxınını sev” romanının mərkəzində siyasi və irqi səbəblərə görə Hitler Almaniyasından qovulan və sürgünə məcbur edilən insanlar dayanır. Onlar daim qaçırlar; faşizmin dalğası onları Avstriya və Çexoslovakiyaya qədər təqib edir və hətta İsveçrə və ya Fransada qaçqınlar yalnız müvəqqəti sığınacaq tapırlar. Hərdən onlara adi insanlar kömək edir; lakin “ev sahibi ölkənin” hakimiyyəti üçün onlar ədalətli oyundur. Onların kimlik vəsiqəsi yoxdur və işləmək icazəsi verilmir. Onlar amansızcasına deportasiya edilir və qeyri-qanuni yolla yaşadıqları üçün həbsxanaya düşürlər. Onlar artıq tam hüquqlu insanlar deyil, romanda bir məqamda deyildiyi kimi, “məzunuyyətdə olan cəsədlərdir”. Romanın mərkəzindəgənc alman yəhudisi Ludviq Kern və onun yoldaşı Jozef Ştayner dayanır. Onlar Hitler Almaniyasından qaçaraq sərhədlər arasında dolaşır, lakin heç bir ölkə onlara həqiqi sığınacaq vermir. Hər yerdə polisin təqibləri, vizasız qalma, sənədsizlik, deportasiya qorxusu və aclıqla üz-üzə qalırlar. Lüdviq həm siyasi, həm də şəxsi cəhətdən çıxılmaz vəziyyətdədir. O, gənc olmasına baxmayaraq, bir ömürlük tənhalıq və ümidsizliyini yaşayır. Bir tərəfdən sərhədlərdəki məhdudiyyətlər, digər tərəfdən insanların biganəliyi onları boğur. Onların ən böyük arzusu sadəcə təhlükəsiz bir ölkədə yaşamaq olur. Roman boyu mühacirlər həm ümid, həm də ümidsizlik içində mübarizə aparır. Əvvəllər siyasi fəaliyyətlə məşğul olan Jozef Stayner həbs düşərgəsində olub və qaçdıqdan sonra mühacir kimi bir ölkədən digərinə sürülmüşdü. Sürgündə hər hansı siyasi fəaliyyətdən çəkinirdi. Nəhayət, Almaniyada qalan həyat yoldaşının ölümcül xəstələndiyini biləndə evə qayıdır. O, xəstə yatağında olan həyat yoldaşına baş çəkərkən yaxalanır və həbs edilir. Onu götürməyə hazırlaşanda Gestapo cəlladını da özü ilə ölümə apararaq pəncərədən atılır. Göründüyü kimi Remarkın baxış dairəsi həqiqətən genişlənib. “Üç yoldaş” romanı ilə müqayisədə “Yaxınını sev” müəllifin siyasi süstlükdən ayıldığını deməyə əsas verir. Dövrün sürətlə cərəyan edən hadisələri, şübhəsiz ki, buna təkan verdi. Remarkın bu əsər üzərində nə vaxt işlədiyini dəqiq müəyyən etmək mümkün olmasa da, o, yəqin ki, 1938 və 1939-cu illəri bu romana sərf etmişdir. Beləliklə, o, faşist təcavüzkarlarının təsiri altında İspaniya Respublikasının süqutunun şahidi oldu. 1938-ci ildə Qərb dövlətləri Münhen paktı ilə Çexoslovakiya Respublikasını faşizmə təslim etdilər. Və nəhayət, 1939-cu ilin yayın ortalarında Polşanın işğalı ilə İkinci Dünya Müharibəsi başladı. Bununla belə, Remark romanda bu hadisələri konkret tarixi terminlərlə izah etmir; lakin onlar personajların hərəkətlərini müəyyən edən işarələr verir və romanın ab-havasını yaradırlar. Beləliklə, Remarkın dövrün siyasi xarakteri ilə bağlı fikirləri faşist aqressiyasının mənəvi qınağına çevrilir: “Sülh toplar və bombardmançılarla, bəşəriyyət konsentrasiya düşərgələri və qırğınlarla sabitləşdi. Biz dəyərlərin tərsinə çevrilməsində yaşayırıq...Bu gün təcavüzkar sülhün keşiyində dayanır və bəlaya düçar olan bu dünyadır...” (4; 76)

Bu romandakı personajların demək olar ki, hamısı, sadəcə olaraq, taleyi və varlığı ilə faşizmin hökmünə məruz qalanlardır. Onlar faşist barbarlığının qurbanlarıdır;

təqiblərə və işgəncələrə məruz qalıblar, qovulublar, həbs ediliblər, ailələri və həyatları məhv edilib. Buna görə də, onlar siyasi baxımdan ümumi mənada qurbanlar kimi müəyyən edilir və antifaşizmin mənəvi dəyərlərini təcəssüm etdirirlər. Onlar yalnız faşizmin qurbanı deyillər; onlar həm də xüsusilə Münhen paktından sonra Qərb demokratiyasının kredosunun bir hissəsinə çevrilmiş zərərli, illüziyalı neytralizmin qurbanlarıdır. Çünki onlar yalnız mühacirətdə təqib və təcrid olunurlar. Onların yeganə problemi "aclıq və narahatlıq"dır. Onlar həbsxana ilə tanışdırlar, lakin taleləri faşist özbaşınalığında onları gözləyən taledən tamamilə fərqlidir. Cünki hələlik azaddırlar və işgəncə görmürlər; çünki daha sonra sürgündə həbs düşərgələrində yaşayacaqlar. Bir sözlə, bu romandakı personajların varlığı və taleyi Remark tərəfindən həm faşizmin, həm də Qərb dövlətlərinin siyasi neytrallığının əlindədir. Onların taleyi bəşəriyyət və demokratiya bahasına dünya səhnəsində oynanılan böyük faciənin ifadəsi kimi görünür və hiss olunur. Remark əvvəlki əsərlərində tətbiq etdiyi siyasi təmkin texnikasından "Yaxınını sev"də də uğurla istifadə edir. Bu, ilk növbədə, onun siyasi partiyalara, təşkilatlara və döyüş qruplarına qarşı olan nifrətindən irəli gəlir. Təsadüfi deyil ki, onun yaratdığı obrazlardan demək olar ki, heç biri siyasi cəhətdən fəal deyil və hər hansı siyasi təşkilata xidmət etmir. Əksəriyyəti hətta kəskin şəkildə müəyyən edilmiş siyasi fizioqnomiyalara malik deyil. Ona görə də kollektiv, mütəşəkkil antifaşist müqavimət mübarizəsi romanda ümumiyyətlə heç bir rol oynamır; tarixi hərəkat kimi antifaşizm Remarka yad olaraq qalır. Məhz bu səbəbdən romanda mübariz döyüşçünü axtarmağa ehtiyac qalmır.

"Yaxınını sev" romanının mövzusu əslində barbarlığın qurbanıdır. Bununla belə personajlar müəllifin əvvəlki romanlarındakı xarakterlərdən əhəmiyyətli dərəcədə fərqlənmir. Burada insan ssonsuzadək təkdir. Çünki romandakı bütün obrazlar özlərinə təsirini hiss etdikləri, lakin dərk etmədikləri və yalnız fərdi şəkildə reaksiya verdikləri tarixi prosesə məsum və istəksizcə qoşulmuşlar. Bu obrazlar Remarkın uğurlu romanlarında olduğu kimi "itirilmiş nəsl"in nümayəndələridir. "Qərb cəbhəsində heç bir yenilik yoxdur", "Üç yoldaş" və "Geriyə yol" romanlarında "itmiş" olmaq hissini doğuran müharibə idi. Bu üç romanda qəhrəmanlar onlar üçün anlaşılmaz reallıqda özlərini yadplanetlilər kimi hiss edirdilər. "Yaxınını sev"in qəhrəmanları da onlardan fərqlənmirdilər. Etiraf etmək lazımdır ki. reallıq onlara təkcə öz idealları və həyata münasibəti baxımından yad deyil, həm də ögey münasibət, sürgün və evsizlikdir. Sadalanan məhdudiyyətlərlə yanaşı, Remark əksər əsərlərində yoldaşlıq mövzusunu da uğurla təqdim edə bilmişdir. Bu, "Yaxınını sev" romanında da özünü biruzə verir. Burada, "Üç yoldaş"da həyatdan yorulanların müdafiə icması kimi təqdim olunan dostluq, yoldaşlıq – qeyri-qanunilərin və təcrid olunmuşların qurban cəmiyyətinə çevrilib. Ortaq antifaşist tale bu yoldaşlığın ideoloji əsasını təşkil edir. Bununla belə, nəticədə "elementar kollektivizm" müəyyən transformasiyalara məruz qalır, baxmayaraq ki, Remarka aid olan yoldaşlıq mifi "Yaxınını sev" əsərində öz qüvvəsini itirməmişdir.

 ISSN 2224-9257

Remark üçün yoldaşlıq tarixin diktə etdiyi zərurət kimi deyil, həyata ortaq münasibət kimi özünü göstərirdi. Burada sevgi, yardımsevərlik, yaxşılıq kimi xüsusiyyətlər də paralel inkişaf edir və müəyyən mənada yoldaşlıq obrazını tamamlayır. Bu isə "elementar kollektivizm"in insan həmrəyliyinə meyl etdiyini göstərən ilk konkret göstəricisidir. Təsadüfi deyil ki, romanın adı "Yoldaşını sev" deyil, "Yaxınını sev"dir.

Hətta əvvəlki romanlarında da onun insanlığa olan passiv sevgisi şübhəsizdir. Lakin o, yalnız yoldaşlar çevrəsində ədəbi baxımdan konkretləşdirilirdi. Bu romanda yazıçı xoşagəlməz aqibətdən əziyyət çəkən bütün insanlara həmrəylik hissi aşılayır. Bu yolla o, faşist vəhşiliyinə və eyni zamanda, insanlara neytral biganəliyə qarşı mənəvi divar hörmək niyyətində idi. Bu romanın mahiyyəti səmimi, humanitar şəfqətdir. Romanın qəhrəmanı Yozef Ştayner bu əsərin bütün üstünlüklərini və ziddiyyətlərini öz xarakterində və hərəkətlərində birləşdirir. Ştayner antifaşist əxlaqını və emosional əminliyini təmsil edir. Lakin, xeyirxah və yardımsevərliyinə baxmayaraq, o, təcrid olunmuş bir fiqurdur. Onun hər hansı siyasi fəaliyyətdən çəkinməsi, konkret siyasi öhdəlik götürməkdən ciddi şəkildə yayınması da onun tarixdən uzaqlaşdığını nümayiş etdirir. Ştayner tarixi reallığı qəbul etmək istəmir, nasizmin gətirdiyi təhlükəni görür, amma özünü ondan ayırmağa çalışır. Beləcə, sanki "bu tarix mənim taleyim deyil" deyir..O, öz həyatını şəxsi seçimlərlə məhdudlaşdırır, halbuki dövrün faciələri hər kəsin taleyini müəyyənləşdirirdi. Məsuliyyətdən qaçmaq – tarixi hadisələrə qarşı mövqesizlik, əslində taleyə təsir edən faktorlardan imtina etməkdir. Ştayner taleyi ilə barışmaq əvəzinə, ondan "uzaq durmağa" çalışır. Bu isə nəticədə özünü tarixin kənarında "boşluqda" qoyur. Yəni, tarixdən yayınmaq – taleyindən yayınmaqdır.Yazıçı burada göstərir ki. insan öz şəxsi taleyini tarixin diktəsindən ayırmağa çalışsa da, nəticədə həm tarixdən, həm də öz taleyindən uzaqlaşır, boşluğa düşür.

Bununla belə, Jozef Ştaynerin nəhayət hərəkətə keçməsi diqqət çəkir. Əsərin gedişində bir neçə məqam var ki, onun "passiv" görünən xarakterinin belə qəfil hərəkətə keçdiyini göstərir. Bu

qəfil hərəkətlər adətən şəxsi taleyinin və daxili ziddiyyətlərinin sıxışdırılması nəticəsində ortaya çıxır. Əslində o, heç vaxt risk sevən, mübariz adam deyil. Lakin onu daimi təqiblər, sürgünlər o həddə çatdırır ki, həyatını təhlükəyə ataraq sərhəddən keçməyə məcbur olur. Burada da "təhlükədən qaçmaq üçün riskə girmək" paradoksu var. Sevgi münasibətlərində laqeyd təsir bağışlayan Ştayner birdən birə Helenə bağlanır. Əslində bu bağlanma onun xarakterində gizli qalmış "hərəkət enerjisi"ni ortaya çıxarır. Ştayner sanki sevgi vasitəsilə "özünü tarixdən qurtarmaq" istəyir. Əsərin bəzi yerlərində o, digər mühacirlərin ümidsizliyi və təcrid olunması fonunda qəflətən kəskin etiraz səsi qaldırır. Hərçənd ardıcıl siyasi mübarizəyə qoşulmur, amma bu partlayışlar onun daxili gərginliyinin əlamətidir. Ştaynerin pəncərədən yıxılaraq əvvəllər ona işgəncə verən Gestapo agenti Ştaynbrenneri özü ilə ölümə

aparması artıq təsadüfi və epizodik xarakter daşımır. Bu həm də Ştaynerin həyat boyu yığılan susqunluq, passivlik, qorxu və təqiblərə qarşı "axırıncı üsyanı"dır. Onun fəaliyyəti ardıcıl deyil, amma məhz gözlənilməzliyi ilə diqqət çəkir. Yəni Ştaynerin davranışlarını təhlil edərkən görürük ki, o, tarixdən yayınsa da, mühacir həyatı və şəxsi faciələri onu vaxtaşırı qeyri-iradi, qəfil hərəkətlərə sürükləyir. Bu, Remarkın qəhrəmanlarına xas olan "yaşamaqla məhv olmaq arasındakı incə xətt"i göstərir.

1940-1950-ci illərdə yazdığı əsərlərində Remark yaradıcılıq üfüqlərini bir az da genişləndirir. O "itirilmiş nəsil" mövzusundan kənara çıxıb, Avropanın ictimai-siyasi həyatının aktual problemlərini gündəmə gətirib. "Zəfər tağı" (Triumphbogen, 1946) romanı İkinci Dünya Müharibəsi ərəfəsində Fransanı, Parisdə yaşayan alman qaçqın və mühacirlərinin həyatını təsvir edir.

Alman mühacir həyatı, İkinci Dünya Müharibəsi ərəfəsində Avropa cəmiyyəti və Nasional Sosializmin zorakılığı Remarkın "Zəfər tağı"nda bəhs etdiyi üç əsas müasir tarixi mövzudur:

1. Alman mühacir həyatı və sürgün dramı - Nasist Almaniyasından qaçan çətinlikləri, hüquqi statusun olmaması, işləmək icazəsinin verilməməsi, daimi deportasiya qorxusu və vətən həsrəti.
2. İkinci Dünya Müharibəsi ərəfəsində Avropa cəmiyyətinin vəziyyəti – Paris və digər şəhərlərdəki gərgin siyasi mühit, diplomatik qeyri müəyyənlik, artan radikalizm və müharibə qorxusunun gündəlik həyata təsiri.
3. Nasional Sosializminin zorakılığı və təqibləri – Nasist rejiminin antisemit qanunları,siyasi rəqiblərə qarşı amansız təqiblər, qətllər və gizli xidmətin (Gestapo) xaricdə belə təqib siyasəti.

Mühacirət həyatının təsvirinə gəlincə, bu romanın özəlliyi ondadır ki, müəllif təkcə mühacirin yaşamaq üçün keçməli olduğu zahiri maneələrdən bəhs etmir, həm də Ravik obrazının timsalında bu insanların daxili aləmindən bəhs edir. "Zəfər tağı" romanı 1945-ci ildə yazılıb və hadisələr , 1939-cu ildə Parisdə baş verir.. Əsərin mərkəzində alman mühacir həkim Ravik dayanır. O nasist rejiminin qəddarlığından qaçaraq Parisə sığınmışdır. Bu romanın qəhrəmanı Almaniyadan qaçmış və əsl adı Lüdviq Frezenburqla birgə keçmişini, təhlükəgizliyini, burjua varlığını da tərk etmiş cərrahdır; indi özünü Ravik adlandırır. Onun kimliyini bildirən hər hansı bir sənədi və iş icazəsi yoxdur; o, daim polis və satqınlardan gizlənir; özünü yalan və kinlə əhatələnmiş kimi hiss edir. Özəl klinikada çörək pulu qazanır, orada qanunsuz işləməyə məcbur edilir və həyasızcasına istismar olunur. Joan Madoya olan sevgisi onu süstlüyündən müvəqqəti də olsa çıxara bilir. Amma bacardıqca həm sözlə həm də əməllə ehtiyacı olan insanlara kömək edir.

Bir gün təsadüfən Parisdə, Almaniyada ona işgəncə verən alman zabiti Haake ilə qarşılalaşır. O,faşısti öldürmək qərarına gəlir. Lakin, nəsə dəyişəcəkmi sualı ona əzab verir. Bir caninin yerini digəri tutacaq, hər şey olduğu kimi qalacaq. Eyni zamanda, Remarkın digər qəhrəmanlarından fərqli olaraq, Ravik başa düşür ki, passivliyə və

hərəkətsizliyə heç bir şəkildə haqq qazandırmaq olmaz, nasistlər real cavab almadıqları üçün xüsusilə azğın olublar. Sonda Ravik Haakeni öldürəcək, lakin bu, "Üç yoldaş" əsərindəki kimi şəxsi qisas aktı deyil, qəhrəmanın sona qədər spektik və fərdiyyətçi olaraq faşizmlə təkbaşına aparmağa üstünlük verdiyi mübarizədir.

Haakenin öldürülməsindən sonra Ravik özündən daha nə edəcəyini soruşur. Amma bu sual, əvvəlki kimi, cavabsız qalır.

Ravikin mövqeyinin ziddiyyətli olduğunu onun sovet ölkəsinə nifrət edən rus mühaciri Boris Morozovla dostluğu faktı da vurğulayır. Bu təcridləri fərdiyyətçilik, bədbinlik və dərin spektisizm bir araya gətirir.

Ümidsizlik hissi romanın sonlarına doğru daha da güclənir. Bunu alleqorik formada dərin qaranlığa qərq olmuş Paris mənzərəsi vurğulayır: "Heç yerdə işıq yanmırdı. Meydan zülmətə bürünmüşdü. Elə qaranlıq idi ki, heç "Zəfər tağı" da görünmürdü..." (1; 455) Bütün romanı əhatə edən Zəfər tağı obrazı dərin simvolik məna daşıyır. Hərbi qələbələrin şərəfinə tikilmiş bu memarlıq abidəsi, daim müharibələri xatırladır, sanki yeni hərbi macəralara qarşı xəbərdarlıq edir. Təsadüfi deyil ki, roman İkinci Dünya Müharibəsinin elanı ilə başa çatır. Sonda könüllü olaraq Fransa hakimiyyət orqanlarına təslim olur və həbs düşərgəsinə aparılır.

Ravikdə ilk baxışdan "Yaxınını sev" əsərindəki Jozef Ştayner obrazının bir çox cəhətdən təkrarını görmək üçün heç bir mürəkkəb əsaslandırmaya ehtiyac yoxdur. Ravikin timsalında biz demək olar ki, yenidən qarşımızda tamamilə tənha, itirilmiş fərdi görürük. Ravik və Ştayner dəyərsiz kimi qəbul edilən bir dünyada, belə demək mümkündürsə, çılpaq insanlardır və buna uyğun reaksiya verirlər. Hər ikisi də siyasət, siyasi partiyalar və ictimai təşkilat formaları ilə hər hansı əlaqənin olmasını istəmir. Hər ikisi varlığın mənasızlığına istehza edir, lakin ümidsizcəsinə cəsarətlərini toplayıb yaşamağa davam edirlər. Hər ikisində də , onlara görə, yalnız yalan, ikiüzlülük və təhriflərdən ibarət görünən reallığa qarşı az qala aristokratik bir etiraz dayanır. Hətta Ravikin bir dəfə dediyi kimi, "həyatın qara girdabında" belə, hər iki obraz onları layiqli fərdlər kimi müəyyən edən "insani kinsizliyi" saxlayır. Onlar humanistcəsinə düşünür, lakin özlərinə güvənməyi faktiki olaraq kultik bir hərəkətə çevirirlər. Bir sözlə: təbiətinə görə həm Ştayner, həm də Ravik yabançı, təcrid olunmuş şəxsiyyətlərdir.

1938-ci il Fransada Xalq Cəbhəsi dağılmış vəziyyətdə, İspaniya Respublikasının qəhrəmanlıq mübarizəsi isə sona yaxınlaşırdı. Münhen paktı müəyyən mənada bütün Avstriyanı bürümüş faşist təcavüzünü qanuniləşdirmişdi; onun növbəti qurbanı qısa müddət sonra Çexoslovakiya oldu. İkinci Dünya Müharibəsi qaçılmaz idi.

"Zəfər tağı"nın qəhrəmanı bu hadisələrə necə reaksiya verir? Yozef Ştaynerdən demək olar ki, fərqlənmir.

Ravik 1940-cı ildə baş verəcək gələcək fəlakətin qabaqcadan xəbərləri ilə dolu bir atmosferdə yaşayır. Bununla belə qəhrəmanın təcrübəsi ilə dövrün həqiqi

mənzərəsini əldə etmək çətindir. Ravik güclü antifaşist xalq hərəkatını görmür.O qeyd edir ki, ispan faşistləri ucuz mühacir mehmanxahasını tərk edir və İspaniya respublikaçıları içəri daxil olur. Lakin Ravik İspaniya Respublikası ilə beynəlxalq hərbçi həmrəyliyindən xəbərsizdir. Başqa sözlə desək: Ravikin üzərində dayandığı dövrün siyasi və ictimai formalaşması onun üçün qapalı kitab olaraq qalır. Tarixi və qanunauyğun düşüncəli yazıçı bu günün mübarizəsindən gələcəyə müəyyənliklər tanıya bilmişdir. Lakin 1943-cü ildə Qırmızı Ordunun Volqa üzərindəki qələbəsindən sonra şübhə edən insanlar anlamalı idilər ki, antifaşist hərəkat öz tarixi missiyasını qalibiyyətlə yerinə yetirəcək. Ancaq 1946-cı ildə nəşr olunan "Zəfər tağı"nda bu əminliyə bir işarə belə yoxdur. Ravik mühacir kimi iki cəhətdən qurbandır. O burjua həyat tərzini şübhə altına alan faşizmin qurbanıdır. Və o, neytral siyasətin, əzab içində olan, istismar edildiyi, təqib edildiyi dünyanın qurbanıdır. Beləliklə, Ravik öz varlığı ilə həyatın bu iki reallığının əxlaqi hökmünü təcəssüm etdirir. Ravik Remarkın yaradıcılığında xarakteri "artıq əvvəlcədən müəyyən edilməyən" ilk figurdur. O mənəvi yüksəlişin çətin yolunu seçən və mürəkkəb intellektual inkişaf yolu keçən bir obrazdır. Həqiqətən də onun inkişafında müəyyən bir təkamülü nəzərdən qaçırmaq olmaz. Başlanğıcda, oxucunun qarşısında həqiqətən də ancaq "sadəcə sağ qalmaq istəyən və buna görə də özünü alçalmağa hazır olan" məhv olmuş, skeptik, yabanı bır insan var. Kamilliyə can atan insana yuxarıdan aşağı baxır və belə bir varlığın muzeyə aid olduğunu bildirir. O, həmçinin həqiqət haqqında çox düşünmür; bununla da insanın özünü aldada biləcəyinə inanır. Və o, tükənmiş, boş həyat sürdüyünə görə praktiki olaraq öyünür. Hərdən ona elə gəlir ki, sadəcə maraqsızlıq kifayət etmir: "Boş həyat –boş bir patron kimi atılmayıb! Hələ vaxtı çatanda və lazım ola bildiyində döyüşmək üçün kifayət qədər yaxşı idi.. Şəxsi səbəblərə görə deyil... sadəcə mübarizə aparmaq üçün..." (4; 87)

"Üç yoldaş"da olduğu kimi bu əsərdə də spirtli içkilərin qəbulu poetik işığa qərq olur.

Ravikin mühacir statusu və onun yaşayış şəraiti ilə ilk ipucları onun emigrant Hotel-İnternationalda yaşaması haqqında danışanda gəlir: "Birinci dəfə deyil ki, kimsə hara gedəcəyini bilmədiyi üçün burada gecələyir. Bu, qaçqınların yaşadığı hoteldir. Bu cür hallar demək olar ki, hər gün baş verir.". O bu sözlərilə romanın baş qəhrəmanı Joana vəziyyəti izah edir.

Romanda məhəbbət mövzusunun işlənməsində də dərin bədbinlik özünü biruzə verir. Əgər "Üç yoldaş"da sevgi və dostluq həyatda yeganə sığınacaq kimi göstərilibsə, "Zəfər tağı"nda da qəhrəman sevgidə məyusluq yaşamağa məhkumdur. Ravik gözəl Joana olan sevgisinin ona xoşbəxtlik gətirəcəyini düşünür. Lakin eqoist Joan, Raviki özünəməxsus şəkildə sevsə də ümidlərini puç etdi. İradəsizliyi, əxlaqi və mənəvi boşluğu üzündən sadiq dost ola bilmədi. Əksinə,Ravikin əzablarını bir az da artırdı.

Joan nasist Almaniyasından qaçqın olaraq Parisə gələn və müharibə şəraitində yolunu tapmağa çalışan gənc, cazibədar qadındır. O güclü, müstəqil qadındır, məğlub olmamamağa çalışır və həmişə asan olmasa da özü qərar verir. O həm də müəyyən zəifliyi olan, qorxularını və etibarsızlığını özü ilə daşıyan qadın obrazıdır. Onun Raviklə münasibəti ehtirasla yanaşı, həm də münaqişə ilə xarakterizə olunur. Hər ikisi də travmatik təcrübələrindən yaralanır, sürgündə həyatın çətinlikləri ilə mübarizə aparır və müharibə şəraitində sağ qalmağa çalışırlar.

Ravikin Joana olan böyük, ağrılı məhəbbəti onu süstlüyündən, passivlikdən bir qədər silkələyir və Gestapo agenti Haake ilə görüşəndə onu tamamilə özünə gətirr. Ravik həyatın yenidən qayıtdığını hiss edir və bu oyanış yaşamaq istəyinin arxasında duran hərəkətverici qüvvə - Haakeni öldürmək üçün daxili məcburiyyətdir. Romanın sonlarına doğru o, "yaxşı cəmiyyət" adlanan məfhuma tənqidi qiymət verir: "Zəifliyə tolerantlıq; gücsüz idman; zəkasız zəka; zəka naminə ağıl;". Bu sözləri qəhrəmanın özünütənqid kimi də başa düşmək olardı. Romanın əvvəlində onun zəifliyə, sönük məqsədsizliyə və fatalizmə dözümlülüyündən ibarət olan davranışı olduqca dəqiq təsvir edilir. Təbii ki, romanın sonunda belə Ravikin mövqeyini kökündən dəyişmədiyini də nəzərdən qaçırmaq olmaz; onda hələ də çox sinizm, şübhə və intellektual iqtidarsızlıq var. Lakin onun mütləq laqeydliyindən oyanıb dünyanı fatalizm , xırdalıq və xəsisliklə xilas etməyin mümkün olmayacağını başa düşməsi də böyük nəaliyyət idi. Amma onun da özünəməxsus şəkildə qurtuluşu arzuladığına inanmaq olar. Tez-tez Ravikdən dünyanın qandan və dəhşətdən qurtulmasının vacıb olduğunu eşidirik. Amma bunun üçün onun imkanları tükənmiş vəziyyətdədir. O, xəyalpərəst, uzaqgörən həsrəti ifadə edə bilir; hətta öz təcrübələrindən dünyanın heç bir qurtuluş tapa bilməyəcəyi yerləri görə bilir, lakin xilası harada axtaracağını bilmir. Ona görə də Ravikin məcazi mənada yuxudan oyanıb, amma hələ də yarıyuxunun içində çırpındığını deyə bilərik. Nəticədə, Remarkın çalışmasında bir fiqurun nə qədər qeyri müəyyən və məhdud olsa da, hər hansı bir inkişafa məruz qalması bir yenilikdir.

Ravikin təkamülü onun təcrid olunmuş sərhədləri daxilində baş verir. O, əvvəldən axıra qədər tək, özünə qapanmış və tənha qalır. Onun inkişafı tarixi xarakter daşımır, ümumi insani, emosional, şəxsi xarakter daşıyır. Ştayner statik, təcrid olunmuş fərdi təmsil edirdisə, Ravik inkişaf etməkdə olan, evsiz fərddir. Onların varlığının mahiyyəti kimi təcrid hər ikisində dəyişməz olaraq qalır. Ona görə də Ravikin hərəkətlərinin təcridlə müəyyən edilməsinin başqa açıqlaması yoxdur. Şübhəsiz ki, romanın kulminasiya nöqtəsi olan Haakenin öldürülməsi ən başından etibarən təcrid olunmuş insanın əlində olan imkanlara uyğun olaraq həyata keçirilir. Gestapo agentini görməsinin Ravikin hərəkətə keçmək əzmini oyatdığını söyləmək heç də kifayət deyil. Raviki hərəkətə gətirən, onu daxilən mühakimə yürütməyə və onu icra etməyə məcbur edən motivlər də araşdırılmalıdır. Şübhəsiz ki, bu, intiqam hissidir: "Qisas siyasi və ya sosial ehtirasların deyil, şəxsi ehtirasların ifadəsidir." ( 4;

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 470-481*

89) Ravik əzab və işgəncə saatlarını ağlında canlandırır; o, sadəcə olaraq, bu vəhşilikləri törədəni məhv etməkdən başqa heç nə edə bilməz. O, qisas almalıdır. Lakin bu Raviki burjua əxlaqının bağlarından azad etmir. Daha doğrusu, bu qətlin motivləri fərdi-anarxik bir aktdır və hətta həddən artıq şişirdilmiş burjua əxlaqının ifadəsidir. Bu hərəkət inqilabi nəticələrlə xarakterizə olunmur. Ravik təcrid olunmuş fərdin qəzəbini fəaliyyət sahəsinə köçürür. Lakin ona əzab verən dağıdıcı hissləri gizli şəkildə özünü biruzə verir. Etiraf etmək lazımdır ki, Haakenin qətlinin də obyektiv tərəfi var. Haake Parisə şəxsi vətəndaş kimi gəlməyib. O, Fransanın paytaxtına xüsusi tapşırıqla gəldiyini açıq aydın bildirdi. O, xaricdə faşizm hakimiyyətini hazırlamalı olan "Beşinci Kolon " adlı gizli təşkilatın agenti kimi Parisdə idi. Faktiki nöqteyi-nəzərdən Ravik Haakedən qisas almaq aktı ilə anti-faşist hərəkata xidmət edirdi; bununla da onun hərəkəti faşizmlə müharibəyə töhfə oldu. Şəxsi intiqam sözün geniş mənasında obyektivliyə çevrilir. Ravikin cinayətdən əvvəl daxili monoloqu – subyektiv motivasiyanı dəyişdirmədən - ən azı Remark üçün əhəmiyyətli olan bir suala işarə etdi: cəmiyyəti düşünərək şüurlu şəkildə atılan addım.

Ravikin əməli bu aspektdən nə yanlış anlaşılmalı, nə də çox qiymətləndirilməlidir. Bunun qəhrəmanın xarakteri və inkişafı üçün heç bir ciddi nəticəsi yoxdur. Həqiqətən də, bir neçə ümumi qeyddən başqa, obyektiv cəhət əslində Ravikin şüurundan kənardadır. Bir daha təkrar etmək lazımdır ki, subyektiv impulsları təcrid refleksi olan, lakin eyni zamanda – yan təsirlərdən asılı olmayaraq – tarixi hadisələrə meyl edən bir hərəkət etmək, şübhəsiz ki, fərdin imkanları daxilindədir. Əgər bu, cəmiyyətdən izolyasiya olunmuş şəxsin inkişaf prosesi ilə əlaqələndirilsəydi, bu tendensiya qeyri-mqəyyən şəkildə göstərilsə belə, bu hərəkət qaçılmaz olaraq təcriddənqurtulmaq üçün səbəb ola bilər. Onda əsl inkişafdan da danışmaq olar. Bununla belə təcrid olunmuş insan öz əxlaqi tənhalığından sevgi dolu Tanrı yaratdıqca, belə desək, tarixi (və ya sosial) müəyyən şəraitdə onun subyektiv hərəkətləri sferasında ola bilər(hər bir insan üçün olduğu kimi), lakin onun əxlaqında və ideologiyasında ola bilməz. İzolyasiyaya sadiq olan belə bir insanın dövrün ictimai-siyasi hərəkatları ilə hər hansı şəkildə təmasda olduğu yerdə bu heç vaxt mərkəzdən baş vermir. Belə olan halda, Ernest Heminqueydə olduğu kimi, tarixi ancaq fərdi macəra kimi başa düşmək olar. Yaxud o, istəksiz toqquşmaya məruz qalan, sadəcə, təsadüfi, periferik bir fenomen olaraq qalır. Bu Ravikin etdiyi əməlin xarakteridir. Bu, heç bir halda tarixi hadisələrin təhrik etdiyi fərdin şüurlu şəkildə yaşadığı macəra deyil. Əksinə, subyektin təmiz, təcrübəli məcburiyyətindən irəli gəlir və obyektiv narahatlıqlara da toxunula bilməsi bədii cəhətdən tamamlayır. Ona görə də Ravikin etdiyi hərəkətin onun inkişafına heç bir təsiri yoxdur. Bu hərəkətdən sonra da,o, eqosentrizm qabığında qapalı qalır; o, heç bir şəkildə mütəşəkkil, tarixi antifaşist hərəkatına inteqrasiya etmir. Daha doğrusu, könüllü olaraq özünü zərərsizləşdirməyə icazə verir və gözləyir. Mübarizə başlayandan sonra onun döyüşə

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 7, 2025
Səh. 470-481

qoşulacağı çox səthi olaraq irəli sürülür. Ravikin ağlına belə gəlməzdi ki, mübarizə çoxdan başlayıb və bu, dövrünün əsas vəzifələrinin ona tamamilə yad qaldığını bir daha sübut edir. Beləliklə, o, demokratiya ilə barbarlığın böyük qarşıdurmalarından birində mütərəqqi-tarixi qüvvələrin tərəfində iştirak etdi. Hərdən Ravikin bu dövrə aid şəxsi xatirələri də eşidilir. Bəs bu qeyri-adi tarixi təcrübə Ravikin xarakterini formalaşdırdımı? Bu, sadəcə olaraq, onun xarakterinə xas olan bir macəra və ya daxili təcrübədir? Yoxsa sürgündəki davranışını müəyyən edir? Bunların heç biri belə deyil. Həqiqətən də, Ravikin Parisdə sürgündə dəfn edilmiş ruhu onun güman edilən keçmişi ilə əsaslı şəkildə ziddiyyət təşkil edir. Onun dostları kimlərdir? Şübhəli varlıqlar, qeyri-sabit burjuaziya, dünyanın son dərəcə varlı xanımları, əxlaqsız qadınlar, belarus mühacirləri, şənlikdən məhrum varlıqlar. Bəs döyüşçü antifaşistlər? Oxucu onları bu romanda boş yerə axtaracaq. Yalnız hərdən onlar Ravikin təcrübə sferasında peyda olurlar, ancaq dərhal yenidən yox olurlar. Ravik Haakeni öldürməklə şəxsi intiqamından əlavə ədaləti qorumaq istədiyinə də inanırdı. Beləliklə, Remark heç bir güzəştə getmədən formalaşmamış şəxsiyyəti tarixi olaraq tanımağa çalışır. Buradakı qəhrəmanlıq özünü təcrid etməkdir. O, məcburiyyət qarşısında hərəkət etmir; o, sadəcə olaraq öz daxili mənliyinə tabe olur. Beləliklə, o, əməli ilə özünü tənhalaşmış bir fərd kimi təsdiqləyir. "Zəfər tağı"ının qəhrəmanı öz varlığından, əməlindən bir missiya qurur və onun qeyri-mümkün olmasının əsl səbəbi də budur. Çünki tarixən təcrid olunmuş insanın bizim dövrümüzdə artıq yerinə yetirəcək bir missiyası yoxdur.

Aparılan araşdırma göstərdi ki, Erix Mariya Remark mühacirət mövzusunu yalnız konkret tarixi şəraitin məhsulu kimi deyil, insan taleyini müəyyən edən fundamental bir problem kimi təqdim edir. Onun qəhramanları üçün mühacirlik məkan dəyişməsindən daha çox mənəvi təcrid və kimlik itkisi deməkdir. "Zəfər tağı" əsərində mühacirlik problemi fərdi psixoloji travma səviyyəsində - həkim Ravikin timsalında, "Yaxınını sev"də isə sosial miqyasda – yüzlərlə qaçqının taleyi fonunda əks etdirilir. Hər iki əsərdə müəllif mühacirətin ağır nəticələrinə baxmayaraq, insan ləyaqətinin, sevgisinin və həmrəyliyinin qorunmasını əsas bədii və fəlsəfi mesaj kimi irəli sürür.

Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Erix Mariya Remarkın mühacirət mövzusuna yanaşması ilk dəfə olaraq "Yaxınını sev" və "Zəfər tağı" əsərlərinin müqayisəli təhlili əsasında araşdırılır. Əsərlərdə mühacirət yalnız tarixi və siyası hadisələrin fonunda deyil, həm də insanın psixoloji durumunu, yadlaşma hisslərini formalaşdıran əsas faktor kimi təqdim edilir. Məqalədə Remarkın qəhramanlarının tipoloji oxşarlıqları və fərqləri göstərilərək, talelərinə yazılan mühacir həyatının mənəvi-ruhi nəticələri üzə çıxarılır. Eyni zamanda, Remark yaradıcılığında mühacirət mövzusunun müasir qlobal kontekstdə aktuallığı vurğulanır. Bu, əsərlərin yalnız XX əsr Avropa tarixi ilə məhdudlaşmadığını, həm də bu gün dünyada yaşanan mühacir böhranları ilə səsləşdiyini göstərir. Beləliklə,

tədqiqat mühacir fenomenini həm ədəbi, həm də sosial-fəlsəfi aspektlərdə yeni baxış bucağından təqdim edir.

İşin tətbiqi əhəmiyyəti: Tədqiqatın nəticələri ali məktəblərin filologiya, tarix, sosiologiya və psixologiya fakültələrində tədris prosesində istifadə oluna bilər. İş tələbələrə mühacirət mövzusunun ədəbiyyatda bədii-fəlsəfi aspektlərini öyrənmək, ədəbiyyatı müasir qlobal problemlərlə əlaqələndirmək və humanist dəyərləri dərk etmək imkanı verir. Ali məktəblərdə müasir qaçqın böhranlarının öyrənilməsində Remarkın əsərləri tarixi müqayisə üçün baza kimi göstərilə bilər. Bu, təhsil prosesinin təkcə elmi bilik yox, həm də mənəvi tərbiyə funksiyasını gücləndirir.

## Ədəbiyyat siyahısı:

1. Erix Maria Remark, Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2009, 672 s.
2. Erich Maria Remarque, Liebe deinen Nachsten, Kiepenheuer & Witsch, 2017, 560 s.
3. Thomas Schneider, Erich Maria Remarque: Leben, Werk und weltweite Wirkung Fromm+Rasch GmbH & Co. KG, 2021, 588s.
4. Alfred Antkowiak, Erich Maria Remarque Volk und Wissen Volkseigener Verlag Berlin 1980, 157s.
5. Die deutsche Gegenwartsliteratur, Michael Braun. Böhlau Verlag, Köln 2010, 247s.
6. Text + Kritik, Erich Maria Remarque, München: Edition Text + Kritik Verlag, 2001, 104s.
7. Н.А.Гуляев, История немецкой литературы, Издательство «Высщая школа» 1970, 525s.

**RUBABA VAKILOVA VALEH GIZI**

## LITERARY DECIPTION OF EMIGRANT LIFE IN THE NOVELS OF ERICH MARIA REMARQUE

## SYMMARY

İn Erich Maria Remarque's novels "Love Thy Neighbor" and "Arch of Triumph", the theme of exile and migration stands at the core.The autor portrays the destinies of people who lost their homeland after the war. For the protagonists of both novels, the idea of homeland becomes nothing more than a distant memory. They attempt to build new lives in foreign lands, particularly in Paris. Yet this new existence is marked by legal uncertainty, poverty, and the constant fear of persecution. In "Love Thy Neighbor", the main character Stefan Zeymark deeply experiences the pain of exile. He cannot return home, but he also cannot find full happiness abroad. In "Arch of Triumph", the figure of Ravic embodies both the wounds of war and the hardships of refugee life. For Ravic, exile means not ounly

physical displacement but also spiritual banishment. In both novels, Remarque illustrates how migration affects human character, psychology, and relationship. The character are constantly faced with a choice: to fight for survival or to surrender to despair. Under the conditions of exile, friendshop, love, and solidarity gain a heightened value. Remarque emphasizes that for exiles the greatest struggle is not only to stay alive, but also to preserve inner integrity. These works reflect both the historical reality and the philosophical longing for one’s homeland. Thus, Remarque merges personal destinities with the universal problem of exile.
**Key words: immigrant, war, homesickness, solidarity, to be isolated**

**РУБАБА ВАКИЛОВА ВАЛЕХ КЫЗЫ**

## ЛИТЕРАТУРНОЕ ИЗОБРАЖЕНИЕ ЕМИГРАНТСКОЙ ЖИЗНИ В РОМАНАХ ЭРИХА МАРИИ РЕМАРКА

## РЕЗЮМЕ

В романах Эриха Марии Ремарка «Полюби ближнего своего» и «Триумпфальная арка» тема иммиграции является центральной. Писатель изображает судьбы людей, лишенных родины после войны. Для героев обоих произведений понятие «отечество» превращается в недосягаемое воспоминание. Они пытаются построить новую хизнь в чужих странах, главным образом в Париже. Но эта жизнь сопроваждается правовой неопределенностью, бедностью и постоянным чувством преследования. В романе «Полюби ближнего своего» главный герой Штефан Цеймарк остро переживает трагедию еммиграции. Он не может вернуться на родину, но и в чужой земле не находит полного счастья. В «Триумфальной арке» образ Равика воплощает военные раны и тяжелые испытания жизни емигранта. Для Равика емиграция – это не только физическая, но и духовная ссылка. В обоих произведениях Ремарк показывает, как изгнание влияет на характер, психологию и отношение людей. Герои постоянно стоят перед выбором бороться за жизнь или смириться с отчаянием. В условиях эмиграции дружба, любовь и солидарность приобретают особую ценность. Писатель подчеркивает, что для емигрантов важна не только физическая выживаемость, но и сохранение духовной целостности. Эти романы отражают не только историческую реальность, но и философское осмысление тоски по родине. Таким образом, Ремарк объединяет личные судьбы с универсальной проблемой изгнания.
**Ключевые слова: емигрант, война, тоска по дому ,солидарность, быть изолированным**

**Rəyçi: professor Aynur Sabitova**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 470-481*